**“Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı” ilə bağlı Samux rayonunda tutulmuş iş planında nəzərdə tutulan tədbirlərin icrasına dair Hesabat**

| Təbirlər planının bəndi | Tədbirin adı | Tədbirin icra vəziyyəti |
|---|---|---|
| 1.9. | Dövlət qurumları tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatların hazırlanması və bu barədə məlumatların açıqlanması | Rayon İcra Hakimiyyətinin tabeliyində olan dövlət qulluqçuları arasında il ərzində vaxtaşırı “Peşəkarlıq və fərdi məsuliyyətin artırılması”, “Mədəni davranış”, “Əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməsi”, “Koorrupsiyanın qarşısının alınması” mövzularında seminarlar və treninqlər keçirilərək maarifləndirmə işləri aparılması təmin edilir, etik davranış qaydalarının pozulması hallarına görə intizam tənbeh təbirləri tətbiq olunur. |
| 4.1. | Dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə dövlət orqanlarına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi | Dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə dövlət orqanlarına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi həyata keçirilir, rəqəmsal icra hakimiyyəti sisteminə inteqrasiya edilməsi təmin olunmuş, habelə yerli icra hakimiyyəti orqanlarının göstərdikləri elektron xidmətlərin sayının artırılması üçün tədbirlər görülür, rəqəmsal icra hakimiyyəti portalı vasitəsilə müraciətlərə əsasən arayışların verilməsi təmin olunur |
| 4.3. | Yerli icra hakimiyyəti orqanlarının vətəndaşların müraciətlərini elektron qaydada qəbul etməsi işinin təkmilləşdirilməsi, habelə yerli icra hakimiyyəti orqanlarının göstərdikləri elektron xidmətlərin sayının artırılması üçün tədbirlər görülməsi | Yerli icra hakimiyyəti orqanlarının vətəndaşların müraciətlərini elektron qaydada qəbul etməsi işinin təkmilləşdirilməsi, habelə yerli icra hakimiyyəti orqanlarının göstərdikləri elektron xidmətlərin sayının artırılması üçün tədbirlər görülür, rəqəmsal icra hakimiyyəti portalı vasitəsilə müraciətlərə əsasən arayışların verilməsi təmin olunur. Samux Rayon İcra Hakimiyyəti tərəfindən Rəqəmsal İcra Hakimiyyəti portalı vasitəsilə xidmətlər göstərilir.Asan Müraciət İnformasiya Sisteminə qoşulmaq təmin olunub. Vətəndaşların həmin sistemlər vasitəsilə müraciət etmələri üçün şərait yaradılmışdır. |
| 5.4. | Dövlət orqanlarında kollegial qərarların qəbulu prosedurlarında, dövlət komissiyaları və işçi qruplarda vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının iştirakının və təmsilçiliyinin genişləndirilməsi | Rayonda dövlət komissayaları, vətəndaş cəmiyyəti instutları və qeyri-hökumət təşkilatları tərəfindən hər hansı bir tədbirin keçirilməsində, qərarların qəbul edilməsində lazımi şərait yaradılır. Vətəndaş cəmiyyəti ilə dövlət qurumları arasında əməkdaşlıq genişləndirilir, QHT-lər onları narahat edən məsələləri dövlət qurumları ilə birlikdə müzakirə edərək onların həllinə |

| | | |
|---|---|---|
| | | nail olmaq imkanı yaradılır. |
| 5.5. | İctimai şuraların əhəmiyyətinin artırılması, dövlət orqanlarında yaradılmış ictimai şuraların sayının çoxaldılması, şuralarda müzakirə edilən məsələlərin əhate dairəsinin genişləndirilməsi, ictimai şuraların fəaliyyəti ilə bağlı maarifləndirmə və təbliğat işlərinin gücləndirilməsi və dövlət qurumlarının rəsmi internet resurslarında əks etdirilməsi | İctimai şuraların əhəmiyyətinin artırılması, dövlət orqanlarında yaradılmış ictimai şuraların sayının çoxaldılması, şuralarda müzakirə edilən məsələlərin əhatə dairəsinin genişləndirilməsi, ictimai şuraların fəaliyyəti ilə bağlı maarifləndirmə və təbliğat işlərinin gücləndirilməsi və dövlət qurumlarının rəsmi internet resurslarında əks etdirilməsi təmin olunur, ictimai şuraların əhəmiyyətinin artırılması ilə bağlı mütəmadi olaraq rayonun rəsmi internet səhifəsində, feysbook səhifəsində və "Yeni Samux"qəzetində maarifləndirici və təbliğat xarakterli məlumatlar verilir. |
| 5.6. | Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması çərçivəsində mütəmadi müzakirələrin keçirilməsi və Platformanın fəaliyyətinin dəstəklənməsi | "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrasına dair Samux Rayon İcra Hakimiyyətində müvafiq Sərəncam imzalanmış və tədbirlər planı hazırlanmışdır. Açıq hökumətin prinsiplərinin tətbiqinin genişləndirilməsi, ictimai nəzarətin gücləndirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi və mütəmadi keçirilən görüşlərdə bu hallar davam etdirilir. |
| 6.3. | Dövlət qurumlarının rəsmi internet informasiya ehtiyatlarında "Açıq məlumatlar" bölməsinin yaradılması | Dövlət qurumlarının rəsmi internet informasiya ehtiyatlarında "Açıq məlumatlar" bölməsinin yaradılması təmin olunur, mənzil növbəsinə götürülmüş imtiyazlı şəxslər barədə, yerlərdə səyyari qəbulların keçirilməsi vaxtı, İHB-aparatı və İƏD-üzrə nümayəndəliklərdə çalışan işçilər barədə məlumatlar, onların telefon və poçt ünvanları barədə məlumatların Samux Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində yerləşdirilməsi təmin olunur. |

Samux RİHB-nın müavini- İctimai-siyasi
və humanitar məsələlər şöbəsinin müdiri:

Kəmalə Xəlilova

28.12.2022-ci il